Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e:
dos. Zaur Məmmədov
"26" "XII" 2024-cü il

# Fənn sillabusu

İxtisas: 050406"Maliyyə", 050409-"Mühasibat"
Fakültə: İqtisadiyyat və idarəetmə
Kafedra: Maliyyə idarəetməsi və audit

**I. Fənn haqqında məlumat:**
Fənnin adı: Vergitutma
Fənnin proqramı:ARTN-nin 12.11.2012-ci il tarixli 2038 saylı əmr və (Fənn müəllimi tərəfindən tərtib olunmuş "26" "XII" 2024-cü il tarixli 07 saylı protokolu ilə təsdiq edilən işçi tədris proqramı).
Kodu: İPF-B16
Tədris ili: IV- 2024/2025-Semestr: II
Tədris yükü: Auditoriya saatının cəmi: 10 saat (10 saat mühazirə)
Tədris forması: Qiyabi
Tədris dili: Azərbaycan dili
AKTS üzrə kredit: 4 kredit
Auditoriya:

**II.Müəllim haqqında məlumat:** Tağızadə Səriyyə Cəfər qızı, baş müəllim
Məsləhət günləri və saatı: III-V gün saat $13^{00}$-$15^{00}$.
E-mail ünvanı: sariyyatagizade@gmail.com
Kafedranın ünvanı: Lənkəran ş., Füzuli küç.,170-a

**III.Tövsiyyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
Əsas ədəbiyyat
1.F.Ə.Məmmədov, A.F.Musayev, M.M.Sadıqov, Y.A.Kəlbiyev, Z.N.Rzayev "Vergilər və vergitututma". Dərslik. Bakı 2010
2.Aydın Kərimov "Mühasibat uçotu, vergilər". Bakı, 2012
3.F.Məmmədov "Azərbaycanın milli vergi sistemi". Bakı, 2011
4.M.Məcidov "Vergi sistemi" Dərslik. Bakı, 2013
5.Vergiyə giriş. Dərslik (2014-cü ildə edilmiş əlavə və dəyişikliklərlə). Şamaxı, 2014
Əlavə ədəbiyyat
6.Azərbaycan Respublikası Vergi Məcəlləsi. Bakı, Qanun 2014
7.Kəlbiyev Y. A., Məhərrəmov R.B., Rzayev P.Q. Xarici ölkələrin vergi sistemi. Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. 2011, 554 səh.
8.Məmmədov Ə.C., Seyfullayev İ.Z. "Vergi və investisiya mühiti",Bakı, 2013, 376 səh.
9.http://www.taxes.gov.az
10.http://www.e-taxes.gov.az

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən İqtisadiyyata giriş, Mikroiqtisadiyyat və Makroiqtisadiyyat fənnlərinin tədrisi vacibdir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı inkişaf strategiyasına uyğun olaraq digər sahələrdə olduğu kimi, vergi sistemində də vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi inzibatçılığının möhkəmləndirilməsi və müasir informasiya texnologiyalarından istifadə etməklə vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi sahələrində davamlı, sistemli və səmərəli vergi siyasəti həyata keçirilir. Aparılan uğurlu iqtisadi, o cümlədən, vergi siyasəti ölkənin makro-iqtisadi göstəricilərində də öz əksini tapmışdır. Ölkəmizdə milli iqtisadiyyatının bazar prinsipləri əsasında inkişafı, sahibkarlıq fəaliyyətinin genişlənməsi iqtisadiyyatda vergilərin rolunu artırmışdır. Bu fənnin tədrisində məqsəd gələcək iqtisadçılara vergilər, vergilərin hesablanması qaydaları, vergilərdən azad olunma, vergi dərəcələri, vergilərə aid nəzəri və praktik məsələlərin həllinə dair biliklər öyrətməkdir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

CamScanner ilə skan edilib

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar, məşğələ və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal-tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir;
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal-tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal-tələbənin cavabı əsasən düzgündür;
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal-tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal-tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal-tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı:** Cəmi 10 saat (10 saat mühazirə)

| № | Keçirilən mühazirə, seminar, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Müh. saat | Tarix |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | Mühazirə mövzuları | | |
| 1 | Mövzu. Vergilərin yaranması, inkişafı və vergitutmanın əsasları<br>Plan:<br>1. XIX-XX əsrlərdə Azərbaycanda birbaşa vergilər və onların tutulma qaydası<br>2. Azərbaycan Demokratik Respublikasında vergilər (1918-1920-ci illər)<br>3. Sovet dövründə Azərbaycanda vergilər<br>4. Müstəqillik dövründə Azərbaycan Respublikasında vergitutmanın inkişafı<br>5. Vergitutmanın ümumi və xüsusi nəzəriyyələri və onların mahiyyəti<br>6. Vergilər və qeyri-vergi ödənişləri, onların mahiyyəti<br>7. Vergitutmanın xarakterik əlamətləri<br>8. Vergitutmanın funksiyaları və vergitutmanın prinsipləri<br>Mənbə: [Mühazirə materialları, 1; 2; 3; 4;5] | 2 | |
| 2 | Mövzu. İqtisadi kateqoriya kimi vergilər, onların idarə edilməsi və vergitutma prosesi<br>Plan:<br>1. Verginin və vergitutmanın elementləri<br>2. İqtisadi subyektin vergi yükü və onun təyin edilməsi<br>3. Vergitutmanın idarə edilməsi və vergi menecmentinin formaları<br>4. Vergi ödəyiciləri, onların hüquqları, vəzifələri və dövlət vergi orqanları<br>5. Vergitutma prosesinin əsas mərhələləri<br>6. Vergilərin hesablanması qaydası və vergilərin ödənilməsi üsulları<br>7. Vergi güzəştləri<br>Mənbə: [Mühazirə materialları, 1; 2; 3; 4;5] | 2 | |
| 3 | Mövzu. Vergi nəzarəti və vergi planlaşdırılması<br>Plan:<br>1. Vergi yoxlamalarının növləri və vergi yoxlamasına olan tələblər və nəticələr üzrə qərarlar<br>2. Operativ vergi nəzarəti<br>3. Vergi planlaşdırmasının mahiyyəti və üsulları | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | 4. Vergilərin optimallaşdırılmasının növləri və prinsipləri<br>5. Beynəlxalq vergi planlaşdırılmasının əsas xüsusiyyətləri<br>6. Hüquqi şəxslərin xarici-iqtisadi fəaliyyətinin təşkili formaları və onların vergi xüsusiyyətləri<br>7. İkiqat vergitutmanın mahiyyəti və tənzimlənməsi üsulları<br>Mənbə: [Mühazirə materialları, 1; 2; 3; 4;5;7] | | |
| 4 | Mövzu. Azərbaycan Respublikasında vergi sistemi.Fiziki şəxslərin gəlir vergisi və Hüquqi şəxslərin mənfəət vergisi, Əlavə dəyər vergisi və Aksiz vergisi<br>Plan:<br>1. Azərbaycan Respublikasında vergi sistemi və vergitutmanın formaları<br>2. Fiziki şəxslərin gəlir vergisinin ödəyiciləri, vergitutma obyekti və dərəcəsi<br>3. Mənfəət vergisinin ödəyiciləri, vergitutma obyekti və dərəcəsi<br>4. Əlavə dəyər vergisi anlayışı, vergi ödəyiciləri, vergitutma obyekti və vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi<br>5. ƏDV-nin dərəcəsi.Vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV<br>6. Aksiz anlayışı. Vergi ödəyiciləri. Vergitutma obyekti<br>Mənbə: [Mühazirə materialları, 1; 2; 3; 4;5] | 2 | |
| 5 | Mövzu: Əmlak vergisi, Torpaq vergisi, Mədən vergisi, Yol vergisi və Sadələşdirilmiş vergi<br>Plan:<br>1. Əmlak vergi ödəyiciləri, vergitutma obyektləri və dərəcələri<br>2. Əmlak vergi güzəştləri və azadolmalar<br>3. Müəssisənin əmlak vergisinin hesablanması və ödənilməsi qaydası<br>4. Torpaq vergisi anlayışı, vergi ödəyiciləri, vergitutma obyektləri və dərəcələri<br>5. Torpaq vergisi üzrə güzəştlər, torpaq vergisinin hesablanması və ödənilməsi qaydaları<br>6. Mədən vergisi anlayışı, vergi ödəyiciləri, vergitutma obyekti və dərəcələri<br>7. Yol vergisi ödəyiciləri, vergitutma obyekti, dərəcələri və tutulması qaydaları<br>8. Sadələşdirilmiş verginin ödəyiciləri və vergitutma obyekti və vergi üzrə dərəcələr<br>Mənbə: [Mühazirə materialları, 1; 2; 3; 4;5] | 2 | |
| X | Cəmi: | 10 | |

**XI.Fənn üzrə tələblər, tapşırıqlar:** Fənnin tədrisi nəticəsində tələbələr vergilərin yaranması və inkişafı tarixi, Azərbaycanda vergilərin meydana gəlməsi, vergi nəzəriyyələri haqqında yetərincə biliklərə yiyələnməli, vergi siyasəti və onun təkmilləşdirilməsi istiqamətləri, müasir vergi sisteminin xüsusiyyətləri haqqında bilməli, vergi münasibətləri iştirakçılarının hüquq və vəzifələri, məsuliyyəti, vergi işinin təşkili, vergi nəzarətinin formaları, tətbiq olunan maliyyə sanksiyaları və cərimələri, vergilərin hesablanması və uyğun büdcələrə ödənilməsi qaydaları, vergi güzəştləri və s.haqqında tam təsəvvürə malik olmalıdırlar.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- Azərbaycan Demokratik Respublikasında vergilər (1918-1920-ci illər), müstəqillik dövründə Azərbaycan Respublikasında vergitutmanın inkişafı, vergitutmanın ümumi və xüsusi nəzəriyyələrini öyrənmək;
- Vergitutmanın əsas elementlərini, İqtisadi subyektin vergi yükünü və vergi yükünün təyin edilməsi qaydalarını mənimsəmək;
- Vergitutma prosesinin əsas mərhələlərini, vergi uçotu sistemini, vergilərin hesablanması və ödənilməsi üsullarını mənimsəmək;
- Vergi planlaşdırmasının mahiyyətini, vergi planlaşdırmasının üsullarını, vergilərin optimallaşdırılmasının növləri və prinsiplərini öyrənmək;
- Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənən münasibətlər və vergilərin müəyyən edilməsinin, tutulmasının əsaslarını, Azərbaycan Respublikasında vergi sistemi və vergitutmanın formalarını mənimsəmək;
- Vergilərin ayrı-ayrı növlərini, vergi ödəyicilərini, vergitutma obyektini və dərəcəsini mənimsəmək.

**XIII.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV. Kollekvium sualları**

1. XIX-XX əsrlərdə Azərbaycanda birbaşa vergilər və onların tutulma qaydası
2. Vergilər və qeyri-vergi ödənişləri, onların mahiyyəti
3. Vergitutmanın xarakterik əlamətləri
4. Vergitutmanın funksiyaları və vergitutmanın prinsipləri
5. Vergilərin hesablanması qaydası və vergilərin ödənilməsi üsulları
6. Azərbaycan Respublikasında vergi sistemi və vergitutmanın formaları
7. Vergi yoxlamalarının növləri və vergi yoxlamasına olan tələblər və nəticələr üzrə qərarlar
8. Vergi planlaşdırmasının mahiyyəti və üsulları
9. Fiziki şəxslərin gəlir vergisinin ödəyiciləri, vergitutma obyekti və dərəcəsi
10. Müəssisənin əmlak vergisinin hesablanması və ödənilməsi qaydası

**XV. İmtahan sualları**

CamScanner ilə skan edilib

1. XIX-XX əsrlərdə Azərbaycanda birbaşa vergilər və onların tutulma qaydası
2. Azərbaycan Demokratik Respublikasında vergilər (1918-1920-ci illər)
3. Sovet dövründə Azərbaycanda vergilər
4. Müstəqillik dövründə Azərbaycan Respublikasında vergitutmanın inkişafı
5. Vergitutmanın ümumi və xüsusi nəzəriyyələri və onların mahiyyəti
6. Vergilər və qeyri-vergi ödənişləri, onların mahiyyəti
7. Vergitutmanın xarakterik əlamətləri
8. Vergitutmanın funksiyaları və vergitutmanın prinsipləri
9. Verginin və vergitutmanın elementləri
10. İqtisadi subyektin vergi yükü və onun təyin edilməsi
11. Vergitutmanın idarə edilməsi və vergi menecmentinin formaları
12. Vergi ödəyiciləri, onların hüquqları, vəzifələri və dövlət vergi orqanları
13. Vergitutma prosesinin əsas mərhələləri
14. Vergilərin hesablanması qaydası və vergilərin ödənilməsi üsulları
15. Vergi güzəştləri
16. Azərbaycan Respublikasında vergi sistemi və vergitutmanın formaları
17. Vergi yoxlamalarının növləri və vergi yoxlamasına olan tələblər və nəticələr üzrə qərarlar
18. Operativ vergi nəzarəti
19. Vergi planlaşdırmasının mahiyyəti və üsulları
20. Vergilərin optimallaşdırılmasının növləri və prinsipləri
21. Beynəlxalq vergi planlaşdırılmasının əsas xüsusiyyətləri
22. Hüquqi şəxslərin xarici-iqtisadi fəaliyyətinin təşkili formaları və onların vergi xüsusiyyətləri
23. İkiqat vergitutmanın mahiyyəti və tənzimlənməsi üsulları
24. Fiziki şəxslərin gəlir vergisinin ödəyiciləri, vergitutma obyekti və dərəcəsi
25. Mənfəət vergisinin ödəyiciləri, vergitutma obyekti və dərəcəsi
26. Əlavə dəyər vergisi anlayışı, vergi ödəyiciləri, vergitutma obyekti və vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi
27. ƏDV-nin dərəcəsi.Vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV
28. Aksiz anlayışı. Vergi ödəyiciləri. Vergitutma obyekti
29. Əmlak vergi ödəyiciləri, vergitutma obyektləri və dərəcələri
30. Əmlak vergi güzəştləri və azadolmalar
31. Müəssisənin əmlak vergisinin hesablanması və ödənilməsi qaydası
32. Torpaq vergisi anlayışı, vergi ödəyiciləri, vergitutma obyektləri və dərəcələri
33. Mədən vergisi anlayışı, vergi odəyiciləri, vergitutma obyekti və dərəcələri
34. Yol vergisi ödəyiciləri, vergitutma obyekti, dərəcələri və tutulması qaydaları
35. Sadələşdirilmiş verginin ödəyiciləri və vergitutma obyekti və vergi üzrə dərəcələr

Sillabus "Maliyyə idarəetməsi və audit" kafedrasının 26 dekabr 2024-cü il (07 saylı protokol) tarixli iclasında təsdiq olunmuşdur.

Kafedra müdiri: dos. Əlixan Bədəlov

Fənn müəllimi: b/m. Səriyyə Tağızadə

CamScanner ilə skan edilib